https://doi.org/10.36719/2706-6185/43/77-81

**Səidə Quliyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0003-4320-3425
saidaquliyeva@bsu.edu.az

# Oğuz rayonunun əhalisinin erməni faşizminə qarşı mübarizəsi

**Xülasə**

Azərbaycan xalqının erməni millətçilərinin soyqırımı və etnik təmizləmə siyasətinə qarşı mübarizəsi müharibə zonasında və ya cəbhədən uzaqda yaşamasından asılı olmayaraq cəsarət və qəhrəmanlıq nümunəsidir. Tarixi dövrlər, baş verən hadisələr və regionlar üzrə araşdırmalar mübarizə və xalqın birliyini göstərən faktları üzə çıxarır. Bu mövzunu hərtərəfli təhlil etmək üçün Oğuz rayonu əsasında araşdırma aparılmışdır. Məqalədə 1918, 90-cı illər və Vətən müharibəsi (2020) dövründə Oğuz rayonunda baş verən hadisələr təhlil edilmişdir. Araşdırma zamanı mövzu üzrə əsas tədqiqatlar, statistik göstəricilər əsas götürülmüşdür. Oğuz rayonu üzrə tədqiqatın maraqlı xüsusiyyətindən biri ermənilərin kompakt yaşadığı rayon olması, 1918-ci ildə burada yerli əhaliyə qarşı soyqırımları həyata keçirməsidir. 90-cı illərdə Ermənistanın işğalçılıq müharibəsi başlayanda ermənilərin bir hissəsi bu ərazilərdən köçüb getmişdir.

Yekunda Oğuz rayonu əhalisinin mübarizəsinə aid faktlar ümumiləşdirilmişdir. Rayon əhalisi həm işğalçılara qarşı Vətənin müdafiəsində iştirak etmiş, həm də ermənilərin hücumları zamanı bu regiona gələn əhaliyə qayğı ilə yanaşmışdır.

***Açar sözlər:*** *Azərbaycan xalqının mübarizəsi, erməni faşizmi, Qarabağ müharibəsi, Oğuz rayonu, Nuxa qəzası*

**Saida Guliyeva**
Baku State University
saidaquliyeva@bsu.edu.az
https://orcid.org/0000-0003-4320-3425

# The Struggle of the Population of Oguz District Against Armenian Fascism

**Abstract**

The struggle of the Azerbaijani people against the Armenian nationalists' policy of genocide and ethnic cleansing is an example of courage and heroism, regardless of whether they live in a war zone or far from the front. Studies of historical periods, events and regions reveal facts that show the struggle and the unity of the people.

In order to comprehensively analyze this topic, a study was conducted based on Oguz region. In the article, the events that took place in Oguz region during 1918, 90s and the period of the Patriotic War (2020) were analyzed. During the research the main studies on the subject, statistical indicators were taken as the basis. One of the interesting features of the research on the Oghuz region is that it is a region where Armenians live compactly, and in 1918, they carried out genocides against the local population here. When the war of aggression of Armenia started in the 90s, a part of Armenians moved from these areas.

The facts related to the struggle of the population of Oguz region are summarized in conclusion. The people of the region took part in the defense of the Motherland against the invaders and took care of the people who came to this region during the attacks of the Armenians.

***Keywords:*** *struggle of the Azerbaijani people, Armenian fascism, Garabagh war, Oguz region, Nukha province*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycan xalqının erməni millətçilərinin soyqırımı və etnik təmizləmə siyasətinə qarşı 200 illik mübarizəsi 2023-cü ildə zəfərlə başa çatdı. Bununla da, Azərbaycanın dövlət suverenliyi bərpa edilmiş, Konstitusiya hüququ dövlətin bütün ərazilərində tətbiq edilməyə başlamışdır. Bu hadisə harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının mübarizəsinin nəticəsi idi.

Azərbaycan tarixinin bu mühüm hadisəsi tarixşünaslığımızda da əksini tapır, hadisələrin şahidi və ya iştirakçısı olan şəxslərin fəaliyyətinin gələcək nəsillərə örnək olması üçün yazıya alınır. Məhz bu səbəbdən də Vətən müharibəsindən (2020) sonra zəfərin müxtəlif nüanslarını əhatə edən tədqiqatlar yazılmağa başlanmışdır.

Təqdim etdiyimiz bu tədqiqatda Azərbaycan xalqının mübarizəsini bir rayon üzrə araşdırmağa çalışmışıq. Oğuz rayonu (1930-1991-ci illərdə Vartaşen) ərazisində baş verən hadisələri tədqiq etmişik, çünki müharibə zonasından uzaqda olan ərazilərimizdə baş verənlərin təhlili ermənilərin soyqırımı və etnik təmizləmə siyasətinə qarşı hər bir azərbaycanlının mübarizəsini aydınlaşdırmaq baxımından vacibdir (Gülxani, 1999).

## Tədqiqat

### 1918-ci il hadisələri zamanı xalqın erməni faşizminə qarşı mübarizəsi

Oğuz rayonu tarixən əhalisinin milli və dini müxtəlifliyi ilə fərqlənmiş, türklər, ləzgilər, udinlər, yəhudilər və digər xalqların nümayəndələri burada birgə yaşamışdılar (Nurməmmədov, 2013). Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra həyata keçirilən köçürmə siyasəti nəticəsində Şimali Azərbaycana, o cümlədən Nuxa qəzasına slavyan xalqları və ermənilər köçürülmüşdü. XIX əsrin sonu və XX əsrdə Nuxa qəzasına daxil olan Vartaşen polis sahəsinin əksər əhalisi türk-müsəlmanlar olmuş, köçürülən əhali kompakt halda yerləşdirilmişdir. Bölgədəki böyük yaşayış məskənləri olan Vardanlı (Kərimli) və Oğuzda (Vartaşen) müxtəlif xalqların nümayəndələri birgə yaşayırdılar: Vardanlıda türklər, kürəlilər, ermənilər; Vartaşendə isə yəhudilər, udinlər, türklər və ermənilər. Mənbələrdə Yaqublu, Qozlu, Axpiləkənd, Cucamış, Calut, Yenikənd, Məclis, Zərrab, Top, Covlan kəndlərində əsasən ermənilərin üstünlük təşkil etdiyi göstərilir (Quliyeva, 2024, s.116-119). Rusiya imperiyasına aid mənbələr nə qədər təhrif edilsə də, bu fakt ermənilərin kütləvi olaraq konkret kəndlərə köçürüldüyünü sübut edir (Verdiyev, 2022).

Məhz belə məskunlaşma ermənilərin 1918-ci ildə yerli əhaliyə qarşı silahlı basqınlarına imkan yaratmışdır. 1918-ci ildə ermənilər Cənubi Qafqaz və Şərqi Anadoluda olduğu kimi Nuxa qəzasında da türk-müsəlmanlara qarşı soyqırımı törətmişdilər. Ermənilərin soyqırımı siyasəti nəticəsində dağıdılmış və yandırılmış kəndlərin sağ qalan sakinləri dağlara qalxmış, başqa kəndlərə pənah aparmışdılar. "Tarixi mənbələrdə 1917-1920-ci illərdə Cənubi Qafqazın müsəlman əhalisinə qarşı soyqırım" əsərində göstərilir ki, Baş qərargahı Qayabaşı kəndində yerləşmiş erməni hərbi qarnizonlardan biri Vartaşen kəndində idi, eyni zamanda hərbi əməliyyatlar nəticəsində Calut, Qozlu, Yaqublu və Zaraf kəndləri ziyan çəkmişdir (Xəlilova, 2000, s. 45, 60-61). Vartaşen polis sahəsinə daxil olan 9 kənd dağıdılmış, 3 kəndin sakinlərinin isə Ərəş qəzasına köçmüşlər (Quliyeva, 2024, s. 25). Bu kəndlərdən 7-si erməni əhalisinin çoxluq təşkil etdiyi kəndlər idi (Paşa Yaqub, 2012).

Tarixi mənbələrdə rayon əhalisinin 1918-ci ildə ermənilərin yerli əhaliyə qarşı silahlı hücumlarına qarşı mübarizəsi barədə faktlar vardır. Azərbaycan Xalq Cümhuriyyətinin dəvəti ilə soyqırımının qarşısını almaq, köməksiz əhalini erməni talanlarından xilas etmək üçün gələn Qafqaz İslam Ordusunun bir hissəsi Nuxa qəzasına gəlmişdi. Mehman Süleymanov "Qafqaz İslam Ordusunun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi" adlı məqaləsində Göyçay döyüşündən sonra Nuru paşanın göstərişinə əsasən ermənilərin Qayabaşı və Söyüdlüdəki mərkəzlərinin dağıdıldığını, ərazinin İsmayıl Haqqı bəyin rəhbərlik etdiyi Şəki dəstəsinin nəzarətinə keçdiyini qeyd edir (Süleymanov, 2008, s.172-197).

Vartaşendə (Oğuz) yaşayan yəhudilər də 1918-ci ildə ermənilərin yerli xalqlara qarşı həyata keçirdikləri soyqırımların hədəfi olmuşlar. Bu səbəbdən də yəhudilərin bir hissəsi Gəncə və Tiflisə köçmüşdür (Şirin, 2005).

Ermənilərin hərbi qərargahları və silahlı dəstələri məhv edilsə də onlar burada yaşamağa davam etmişlər. Belə ki, Azərbaycan SSR-i dövründə də Vartaşen və Vardanlıda əhalinin milli tərkibində

ciddi dəyişiklik baş verməmiş, etnik müxtəliflik qorunmuşdur. Bu səbəbdən də, 1939-cu ildə rayon mərkəzində erməni və rus dilində təhsil verən beynəlxalq orta məktəb var idi (İsmailov, 1981, s. 22). Sovet dövründə Oğuz respublika üzrə ermənilərin daha çox yaşadığı rayonlardan biri olmuşdur. Məsələn, 1970-ci il üçün Azərbaycanın şimal-qərbinin 6 rayonu üzrə müqayisə aparsaq görürük ki, ermənilər əsasən Vartaşen rayonunda yaşayırdı. 1939-cu ildə ermənilər rayon əhalisinin 9 %-ni, 1959-cu ildə 12 %-ni, 1970-ci ildə 10 %-ni, 1979-cu ildə 9 %-ni, 1989-cu ildə 8 %-ni təşkil etmişdir (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 1994).

Oğuz rayonunda yaşayan ermənilər XX əsrin 90-cı illərində baş vermiş Qarabağ müharibəsi zamanı rayonda yenə millətçi çıxışlar etməyə başlayırlar. Lakin əhalinin sərt mövqeyi ilə rastlaşdıqları üçün bu dəfə onların əksəriyyəti, Azərbaycanın digər bölgələrində olduğu kimi, Oğuz rayonundan da köçüb getmişlər. Ermənilərin sayı 1959-cu ildə 2.386 nəfər olduğu halda, 1999-cu ildə 5 nəfər qeydə alınmışdır. Lakin onların dəfn olunduğu qəbiristanlıq bu günə qədər şəhərdə qalır. Xalq arasında "erməni qəbiristanlığı" adlandırılan yer, əslində, xristian qəbiristanlığıdır. Məzarlıqdakı müşahidələrimizdə burada XX əsrin əvvəllərindən son illərə qədər dəfn olunan məzarların olduğunu gördük və bu məzarlar olduğu kimi qalmışlar, yəni dağıdılmamışdı. Məzarların üzərindəki tarixlər də ermənilərin gəlmə olduğunu sübut edir. Qəbiristanlığın bu gün mövcudluğu faktı bir daha Oğuz rayonunun mədəni müxtəlifliyə böyük önəm verdiyini sübut edir. Bu cəhət, bütün Azərbaycan üçün xarakterikdir. Əks arqument olaraq azərbaycanlıların öz dədə-baba torpaqlarından çıxarıldıqdan sonra Qarabağda və indiki Ermənistan dövlətinin ərazisində qalan qəbiristanlıqların, məscidlərin və digər abidələrin dağıdıldığını görürük (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 1994).

**Oğuz rayonu əhalisinin Qarabağ müharibələrində iştirakı**

XX əsrin 90-cı illərində baş vermiş Qarabağ müharibəsi zamanı rayon əhalisi Vətənin müdafiəsində aktiv iştirak etmişdir. Rayon gəncləri könüllü olaraq özünümüdafiə batalyonlarına qoşulmuş, Oğuz batalyonu yaradılmışdır. 1990-1994-cü illərdə 57 nəfər, Vətən müharibəsində (2020) isə 25 nəfər şəhidlik zirvəsinə ucalmışdır. Onlardan Koroğlu Rəhimov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 16 sentyabr 1994-cü il tarixli sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür (Paşa Yaqub, 2012). Vətən müharibəsində iştirak edən Oğuz gəncləri isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Ağdamın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad edilməsinə görə" və digər medallar ilə təltif olunmuşlar (Quliyeva, 2024, 38-39).

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün 1992-ci ildə rayonda Şəhidlər xiyabanı salınmış, bir sıra məktəblərə, uşaq bağçalarına, həmçinin şəhər küçələrinə onların adı verilmişdir (Oğuz rayon İH-nin saytı, 2017).

Təqdirəlayiq haldır ki, rayon ziyalıları tərəfindən XX əsrin 90-cı illərində baş vermiş Qarabağ müharibəsində iştirak edən övladları barədə məlumatlar nəşr olunmuşdur. Bu əsərlərə Pənah Gülxaninin "Oğuz şəhidləri və itkinləri", İsrafil İsmayılovun "Oğuz rayonunun şəhidləri və veteranları", Yusif Rzayevin "Bura Oğuzdur: Oğuz rayonu haqqında məlumat-informasiya kitabı", İmran Verdiyevin "Yaqublu kəndi və onun məktəbi", rayonun kəndləri haqqında ensiklopediyaları və digər nəşrləri göstərmək olar (Məhiyeva, 2017).

**Erməni faşizmindən ziyan çəkən əhalinin pənah gətirdiyi rayon**

Rayon əhalisinin erməni millətçilərinin soyqırımı və etnik təmizləmə siyasətinə qarşı mübarizəsində ən dəyərli addımlarından biri rayona pənah gətirmiş insanlara hər cür kömək göstərmələridir. XX əsrin əvvəllərində və sonunda ermənilərin Qarabağ və Zəngəzur ərazisində dinc müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımları və hücumları nəticəsində ziyan çəkən əhali bu əraziyə pənah gətirmiş, yerli əhali və dövlət tərəfindən onlara müxtəlif yardımlar göstərilmişdir.

1918-ci ildə ermənilərin həyata keçirdiyi soyqırımları zamanı yurdlarından didərgin düşmüş Üçkilsə qəzasının Ağcaqala, Eşnək, Dian, Quldərviş, Yuxarı Kolatanı və Əkərək kəndlərinin sakinləri yuxarıda dağıdıldıqlarını göstərdiyimiz Zərrab və Yaqublu kəndlərinə pənah gətirmişlər. Bu səbəbdən də 1933-cü ilə aid mənbədə bu kəndlərdə yaşayışın olduğu göstərilmişdir (Azerbaydjanskaya SSR, 1961, s. 70-71). Himayədarlıq Nazirliyi qaçqınlara kömək məqsədilə Nuxa dairəsində Nuxa, Ağdaş, Seyidlər, Nic, Vartaşen yaşayış məntəqələrində dayaq nöqtələri yaratmışdır. Bu dairədə qaçqınların sayı 5.100 nəfər idi. Nuxada 500 nəfər üçün bir qida məntəqəsi, 50 müsəlman uşağı üçün 1, 290 erməni uşağı üçün 2 uşaq evi açılmışdır. Qaçqınlara 2.623 pud taxıl məhsulları paylanmışdı. Nuxa və Ərəş qəzalarının 49 kəndinin əhalisi 5 min qaçqını məskunlaşdırmaq istədiklərini bildirmişdilər. Əkinçiliklə məşğul olan qaçqınların bu qəzalarda yerləşdirilməsi məqsədəuyğun hesab edilmişdi (Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, 1990, s. 76-88).

1991-1994-cü illərdə ermənilərin Azərbaycana qarşı apardığı işğalçı müharibə nəticəsində yurd-yuvalarından didərgin düşmüş əhalinin bir hissəsi ‒ rəsmi olaraq 3.470 nəfəri bu dəfə də Oğuz rayonuna pənah gətirmişdir. Ən çox ailə Kəlbəcər rayonundan gəlmişdir – 275 ailə (1.092 nəfər) (Rzayev, 2004, s. 113). Rayonda salınmış qaçqın düşərgəsində 1995-ci ildə 2.434, 1997-ci ildə 2.461, 1998 və 1999-cu ildə 2.508, 2000-ci ildə 2.644 və 2001-ci ildə 2.677 nəfər məcburi köçkün yaşayırdı (Azərbaycanın regionları, 2002, s. 446). Bu əhalinin bir hissəsi sonradan Azərbaycanın digər rayon və şəhərlərinə, həmçinin xaricə köçmüşdülər.

## Nəticə

Tədqiqatın nəticəsində bir daha sübut edilir ki, Azərbaycanın hər yerində xalq işğala qarşı mübarizəyə qalxmış, ön cəbhədə erməni faşizminə qarşı döyüşmüş, qaçqınlara qayğı ilə yanaşmış, onları rayon ərazisində qəbul etmişdir.

Hər bir rayon üçün şəhidlərə aid biblioqrafik kitabların nəşr olunması ilə yanaşı bu mövzuda elmi tədqiqatlara ehtiyac vardır. Çünki Azərbaycan xalqı erməni millətçilərinin soyqırımı və etnik təmizləmə siyasətinə qarşı qəhrəmanlıq mübarizəsi aparmışlar.

Tədqiqat zamanı Azərbaycanın ən kiçik rayonlarından biri olan Oğuza aid çox saylı faktların mövcudluğu digər rayonlarımız üçün də tədqiqatların aparılmasının mümkün olduğunu sübut edir.

## Ədəbiyyat

1. *Azerbaydjanskaya SSR.* Administrativno-territorialnoe delenie na 1 yanvarya 1961 g.. (1961). Azerb. Qosudarstvennoe izd.
2. *Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.* (1994). Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası. http://e-qanun.az/framework/9018
3. *Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə*. (1990). Elm.
4. *Azərbaycanın regionları*. (2002). Azərbaycan Respublikasının Statistika komitəsi.
5. Xalilov, A. (2000). *Kenochid protiv musul'manskogo naseleniya Zakavkaz'ya v 1917-1920 gg. v istoricheskikh istochnikakh*. Azerneşr.
6. Ismailov, I.. (1981). *Rayon 15-i natsionalnostey (Vartashenskiy rayon Azerb.SSR)*. Obshestvo «Znanie».
7. Quliyeva, S. (2024). *Oğuz rayonunun əhalisi XX-XXI əsrin əvvəllərində* (tarixi-demoqrafik tədqiqat). Füyuzat.
8. Məhiyeva, V. Ə. (2017). Oğuz rayonu Dağlıq Qarabağ müharibəsi illərində. s. 280-284. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu.* V buraxılış. Bakı Universiteti nəşriyyatı.
9. Nurməmmədov, R. (2013). Tolerant mühiti ilə seçilən Oğuz rayonu dini və milli dözümlülükdə nümunəvi bölgədir. *525-ci qəzet*. https://525.az/?name=xeber&news_id=11004#gsc.tab=0
10. Paşa Yaqub. (2012). *Baş Daşağıl ensiklopediyası*. "Zərdabi LTD" MMC.
11. Paşa Yaqub. (2012). *Padar kəndinin ensiklopediyası.* "Zərdabi LTD" MMC.
12. Gülxani, P. (1999). *Oğuz şəhidləri, itginləri*. Mütərcim.
13. *Oğuz rayonunun İcra hakimiyyətinin saytı*. (2017). http://www.oguz-ih.gov.az/az/page/15.html.

14. Rzayev, Y. K. (2004). *Bura Oğuzdur: Oğuz rayonu haqqında məlumat-informasiya kitabı.*
15. Süleymanov, M.. (2008). Qafqaz İslam Ordusunun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi, *Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu.* Qafqaz Araşdırmaları İnstitutunun nəşri, s. 172-197.
16. Şirin, İ. (2005). *Vartaşen (Oğuz) yəhudi icması haqqında qısa tarixi oçerk.* Şirvannəşr.
17. Verdiyev, İ. (2022). *Yaqublu kəndi və onun məktəbi.* "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC.

Daxil oldu: 12.09.2024
Baxışa göndərildi: 23.11.2024
Təsdiq edildi: 08.01.2025
Çap olundu: 30.01.2025